Yuğ Dövlət Teatrı müstəqillik dövrü hadisələrinə refleksiya kimi

■ **Elçin Cəfərov**
teatrşünas

Müstəqillik illərində Azərbaycan teatrı bəlkə də mövcudluğunun ən maraqlı, rəngarəng dönəmini yaşayıb. Müstəqillik dövrü dedikdə 20-ci əsrin 80-ci illərindən başlanan, milli özünüdərklə, oyanışla müşayiət olunan prosesləri nəzərdə tuturuq. Çünki milli müstəqillik rəsmi olaraq 1991-ci ildə elan olunsa da, faktiki olaraq bu proseslər hələ 80-ci illərin sonlarından başlamışdı. Yenidənqurma dövrünün (25 iyun 1987 - SovİKP MK-nın plenumu "yenidənqurma" ("perestroyka") haqqında qərar qəbul edib) mədəni proseslərinin nəticəsində Azərbaycan teatrı öz tarixi köklərinə döndü, yeni məqsəd və vəzifələrini müəyyənləşdirdi. Azərbaycan düşüncəsində başlanan oyanış paralel olaraq sənət düşüncəsi, o cümlədən teatr düşüncəsini də gözgörəsi dəyişdirdi.

Sovet ideoloji maşınının basqısı altından xilas olan Azərbaycan teatrının da meyarlar sistemi, prioritetləri və motivassiyası kökündən dəyişdi. Milli təfəkkürdən, mentallıqdan qaynaqlanan milli sənət düşüncəsi, müstəqillik dövrünün gündəmə gətirdiyi yeni mənəvi dəyərlər sistemi (azadlıq, millətçilik, türkçülük və s.), qloballaşan dünyanın sənət düşüncəsində formalaşan yeni məzmun, forma və üslub xüsusiyyətlərinə, janr əlvanlığına və yeni tendensiyalara meyil müstəqillik dövrü teatrının əsas prioritet istiqamətlərinə çevrildi. Yeni dövrün teatrı həm forma, həm məzmun, həm də ideya-bədii cəhətdən yeni xüsusiyyətlər qazandı və əvvəlki dövrlərdən tamam fərqli aktual prinsiplər dominantlıq təşkil etməyə başladı. Müstəqillik dövrünün teatrında milli düşüncə, millimənəvi dəyərlər, tarixin yeni yozumu, arxetiplərə qayıdış, kökə bağlılıq, ictimai şüurda oyanış, dövlətçilik, türkçülük, millətçilik, qloballaşma, sənət və kapital, şəhid, şəhidlik anlayışı, mesenatlıq, islami dəyərlər və s. kimi aktual prinsiplər formalaşdı.

Müstəqillik illərində Azərbaycan mədəniyyəti və incəsənəti yeni bir mərhələyə qədəm qoydu. Təbii ki, bu mərhələ problemsiz, itkilərsiz, ağrı-acısız da ötüşmədi. Ancaq ötən əsrin 90-cı illərindən etibarən Azərbaycan mədəniyyətinin qazandığı uğurların miqyası danılmazdır.

Bir faktı konstatasiya etmək istərdik ki mövcudluğu dövründə milli teatrda ən çox teatr müəssisəsinin yaranması məhz müstəqillik dövrünün bərqərar olduğu ilk illərdə baş tutub. Gənclər, Kamera, Yuğ, Pantomim teatrları, çox sayda özəl və antrepriz teatrların yaranması müstəqillik illərinə təsadüf edir. Ağır iqtisadi durum, qarışıq siyasi şərait, müharibə dövründə teatr sənətinin inkişafı ilk baxışda paradoksal görünə bilər. Amma müstəqillik dövrünün Azərbaycan teatrı üçün dönüş nöqtəsi olması danılmaz faktdır. Maraqlıdır ki, yuxarıda adlarını çəkdiyimiz teatrların hər biri özəl estetikaya, fərqli sənət yoluna malik teatrlar kimi Azərbaycan teatr prosesini əlavə bir hərəkət, canlılıq gətirdi. Doğrudur, hazırda bu teatrlardan ikisinin - Gənclər və Kamera Teatrlarının fəaliyyəti dayandırılıb, amma bu teatrların milli teatr sənətimiz üçün əhmiyyəti çox böyükdür. Hazırda bu teatrlardan ikisi - Vaqif İbrahimoğlunun yaratdığı Yuğ və Bəxtiyar Xanızadənin yaratdığı Pantomim teatrları fəaliyyətlərini davam etdirir.

Yuğ teatrı müstəqillik dövrünün məhsuludur. Mərhum rejissor Vaqif İbrahimoğlunun yaratdığı teatr zamanını duyan, hətta müəyyən məqamlarda zamanını qabaqlayan rejissorun dövrə adekvat reaksiyasıdır.

Rejissor Vaqf İbrahimoğlunun "öz teatrını" yaratmaq arzusu 1989-cu ildə Akademik Milli Dram Teatrının nəzdində Yuğ teatr studiyasının, daha sonra isə (1992-ci il) Azərbaycan Dövlət Yuğ Teatrının yaranması ilə nəticələndi. Yuğ teatrının yaranması teatr ideyalarını həyata keçirmək üçün V.İbrahimoğlunun qarşısında geniş yaradıcılıq imkanları açdı. Bu gün yaxın tarixə boylanıb teatrın iyirmi dörd illik fəaliyyətinə, əldə olunan nəticələrə nəzər saldıqda əmin oluruq ki, rejissor bu şəraitdən yetərincə səmərəli yararlanmağı bacarmışdır.

Özünəməxsus, orijinal teatr düşüncəsinə malik novator rejissor Vaqif İbrahimoğlunun Eksperimental Teatr studiyasından (sözügedən teatr studiyası 1976-cı ildə yazıçı Anarın təşəbbüsü ilə Azərbaycan Teatr Cəmiyyətinin Aktyor evində yaradılmışdı) Azərbaycan Dövlət YUĞ Teatrındakı fəaliyyətinə qədər bütün yaradıcılığını məhz zaman keçdikcə təkmilləşərək bitkin, ciddi nəzəri-konseptual əsaslara söykənən poetikaya çevrilən teatr düşüncəsinin realizəsi yolunda atılan addımlar kimi dəyərləndirmək lazımdır.



Rejissor elə ilk işi olan "Əhvalat vaqe olur" tamaşası (tamaşa Sultan Məcid Qənizadənin "Xor-xor", Cəlil Məmmədquluzadənin "Yığıncaq" və Cəfər Cabbarlının "Yaylağa gedir" bir pərdəli komediyalarının kompozisiyaları əsasında hazırlanmışdı) ilə seçdiyi sənət istiqamətini, yaradıcı iddialarını bəyan etdi. Abbas Mirzə Şərifzadə adına Aktyor Evinin nəzdində fəaliyyət göstərən Teatr studiyasında quruluş verdiyi iki tamaşa - "Qədim nəslin nümayəndələri" (A.P.Çexovun "Evlənmə", B.Şounun "Lord Avqust iş başında " və L.Pirandellonun "Axmaq" birpərdəli pyesləri əsasında) və "Məcnun" (Məhəmməd Fizulinin "Leyli və Məcnun" poemasının motivləri əsasında, rus dilində) tamaşaları ilə V.İbrahimoğlu, əgər belə demək mümkündürsə, öz yaradıcılıq yolunun konturlarını cızdı. Studiya bağlandıqdan sonra Vaqif İbrahimoğlu və həmfikirləri burada başladıqları işi M.Əliyev adına Azərbaycan Dövlət İncəsənət İnstitutunun (indiki Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti) nəzdində fəaliyyət göstərən Tədris Teatrında davam etdirdilər. Bir də dikdən sonra bu prosesdən bir qədər uzaqlaşdı. Musiqili Komediya teatrındakı fəaliyyəti dövründə də V.İbrahimoğlu rəsmi iş saatından sonra öz dəstəsi ilə seçdiyi teatr konsepsiyasına uyğun tamaşalar hazırlayır, hələ Aktyor evində başladığı teatr eksperimentlərini, axtarışlarını davam etdirirdi. Nəhayət, bu axtarışlar teatr prosesimizin avanqardında dayanan V.İbrahimoğlunun öz teatrını yaratması ilə nəticələndi. Rejissorun milli teatr poetikasını yaratmaq arzusu və bu yolda mətin mübarizəsi artıq fərqli konsepsiya ilə işləyən, fərqli bədii-estetik prinsiplərə söykənən yeni bir teatrın yaranmasını zərurətə çevirdi. Əslində, V.İbrahimoğlunun yaradıcılığını teatr fəaliyyətinə başladığı ilkin dövrdən etibarən məhz yuğ tipli, yuğ amallı bir teatrın yaradılmasına doğru bir yol kimi dəyərləndirmək olar. Rejissorun quruluşunda səhnə həyatı tapan, az qala, hər biri hadisəyə çevrilən bütün tamaşalar isə bu yolda atılan növbəti addım idi və nəhayət, 1989-cu ildə Həsənağa Turabovun təşəbbüsü və yaxından köməkliyi nəticəsində Akademik Milli Dram Teatrının nəzdində Yuğ Teatr Studiyası açıldı. 1992-ci il 18 oktyabr tarixində studiya dövlət statusu aldı.

Yuğ teatr studiyası ilə Yuğ Dövlət Teatrı arasında o qədər də ciddi yaradıcı fərqlər mövcud deyil və onların fəliyyəti vahid bir prosesin mərhələləri kimi dəyərləndirilməlidir. Yuğun fəaliyyətinə qısaca nəzər salarkən görürük ki, bu gün Azərbaycan teatr məkanında öz orijinal sənət yolu olan, əhatəsinə əsasən ölkənin ziyalı təbəqəsindən ibarət geniş tamaşaçı kontingenti toplaya bilən və milli teatr prosesinə fəal təsir göstərən Yuğ adlı bir teatr mövcuddur. Bu gün Yuğ Teatrının ünvanına deyilən modernist, postmodernist teatr ifadələrini sıxsıx eşidirik. Doğrudur, modern, postmodern teatr düşüncəsi Yuğa yad istiqamətlər deyil, amma bu ifadələr bütövlükdə Yuğ Teatrının fəaliyyətini xarakterizə etmir. Yuğu səciyyələndirən başlıca amil bu teatrın milli sənət düşüncəmizə, xalq oyun-tamaşa mədəniyyətindən qaynaqlanan teatr ənənələrinə müraciət etməsi və bu ənənələri dünya teatr prosesinin qabaqcıl təcrübələri ilə birləşdirə bilməsindən ibarətdir. Bu səhnədə oynanılan bütün tamaşalarda milli oyun-tamaşa mədəniyyətinin ünsürlərini sezmək mümkündür. Əslində, teatrın adı da onun başlıca yaradıcılıq istiqamətlərini kodlaşdıran amil kimi çıxış edir. Bəllidir ki, "yuğ" türklərin ən qədim mərasimlərindəndir və bu oyun-mərasimlər Yuğ Teatrının tamaşalarının modeli kimi dəyərləndirilə bilər. Teatrın fərqli, bənzərsiz yaradıcılıq yolunun olduğu heç kəs üçün sirr deyil. Bu bənzərsizliyə zəmin yaradan amillərdən biri də Yuğun özəl poetikasının olması və fəaliyyətində bu poetikaya istinad etməsidir. "Ruhun hikmətləri" anlamına gələn "Psixosof" poetikasının adı da bu teatrın tamaşalarını və yaradıcılığını daha dərindən anlamaq üçün açar rolunu oynayır. İstinad etdiyi poetikanın adından da göründüyü kimi, Yuğ Teatrı ruhi kontakta, ruhi hala çox böyük önəm verir, insan ruhunun yaşamı, insanın ruhi-psixodelik halı onun yaradıcılığının mərkəzində dayanır. Məhz bu fakt Yuğ Teatrının təqdim etdiyi tamaşaların dəyərləndirmə vasitələrini də köklü surətdə dəyişir.

Psixosof poetikası Azərbaycan teatr düşüncəsində tamamilə yeni bir mərhələ olaraq, özlüyündə fərqli, yeni, müasir teatr dünyagörüşünü, sənət təfəkküründü ehtiva edir. Heç şübhəsiz, bu poetikanın realizəsi üçün konkret texniki vasitələr, praktiki üsullar mövcuddur. Vaqif İbrahimoğlunun teatrında aktyorun başlıca aləti özüdür, bədənidir, ruhudur. Psixosof poetikasının predmetini də insanın ruhu təşkil edir.

Psixosof teatr poetikası həm də ona görə müasir və aktualdır ki, kanonlaşdırmadan və doqmatizmdən uzaqdır, hər cür inkişafa və interpretasiyaya açıqdır. Sözügedən poetika hansısa dövrün aktual mətləblərinə, konyuktur mövzulara yox, bəşəriyyətin ən ali, ən universal anlayışına, insan ruhuna yönəlib. Ruhun isə nə yaşı, nə milliyyəti, nə zamanı var. Bu mənada, bu poetika dünya mədəniyyət universimunun bir hissəsinə çevrilə bilər. Bu universallıq psixosof teatr poetikasına uzunömürlük və daha geniş arealda yayılmaq, anlaşılmaq və tanınmaq potensialı qazandırır.

Bu səbəbdən düşünürəm ki, Psixosof teatr poetikasının, Vaqif İbrahimoğlunun konseptual rejissurasının poetika səciyyələrinin öyrənilməsi və retranslyasiya olunması Azərbaycan teatrının təbliği və dünya teatr məkanında milli teatrımız haqqında o qədər də xoş olmayan təəssüratların dağıdılmasına yardımçı ola bilər. Çünki öz qazanımızda qaynamağa öyrəşmiş bizlər Azərbaycan teatrı haqqında nə qədər yüksək fikirdə olsaq da, hamburq hesabı ilə yanaşıb da, gerçəkliyin gözünə baxsaq görərik ki, dünya teatr məkanında milli teatrımız daha çox köhnəlmiş, zamandan geri qalmış və ancaq klassik teatr formalarına uyğun fəaliyyət göstərən teatr kimi qəbul olunur. Halbuki, Azərbaycan teatr məkanında dünya məkanına çıxarılası və təbliğ olunası kifayət qədər nailiyyətlər var və bu nailiyyətlərdən biri də, heç şübhəsiz, Yuğ teatrı və bu teatrın yaradıcılığının metodoloji əsası rolunu oynayan psixosof teatr poetikasıdır.